## İxrac Nəzarəti üzrə Komissiyanın və idarələrarası ekspertlər qrupunun yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ixrac nəzarəti sahəsində dövlət siyasətinin həyata keçirilməsini və müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Aşağıdakı tərkibdə İxrac Nəzarəti üzrə Komissiya yaradılsın:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Yaqub **Eyyubov** | - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Yavər **Camalov** | - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri |
| Natiq **Əliyev** | - Azərbaycan Respublikasının energetika naziri |
| Xələf **Xələfov** | - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| Faiq **Tağızadə** | - Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini |
| Sənan **Kərimov** | - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini |
| Əli **Nağıyev** | - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini |
| Toğrul **Musayev** | - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini |
| Çingiz **Məmmədov** | - Azərbaycan Respublikası müdafiə nazirinin müavini |
| Firdovsi **Əliyev** | - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini |
| Asif **Cəbrayılov** | - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin müavini |
| Arif **Həşimov** | - Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti |
| Kamran **İmanov** | - Azərbaycan Respublikası *Əqli Mülkiyyət* Agentliyinin *İdarə Heyətinin* sədri |
| Ağadayı **Ağayev** | - Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (komissiyanın katibi) |
| Şahin **Bağırov** | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi |

2. Bu Sərəncamın 1-ci bəndi ilə yaradılmış komissiyaya tapşırılsın ki, komissiyanın iclaslarında müzakirə ediləcək məsələlərin hazırlanması üçün aidiyyəti təşkilatların vəzifəli şəxslərindən ibarət idarələrarası ekspertlər qrupu yaratsın və onun fəaliyyətini tənzimləsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 dekabr 2006-cı il
№ 1839